# Azərbaycanla İsrail arasında münasibətlər yüksələn xətlə inkişaf edir

Mayın 12-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev İsrail Dövlətinin Şiba Tibb Mərkəzinin Qlobal şöbəsinin müdiri Yoel Har-Even və mərkəzin həkimi Boris Orkin ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Musa Quliyev Şiba Tibb Mərkəzinin dünyada tanınan və tibb sahəsində böyük nailiyyətlər əldə edən bir mərkəz olduğunu deyib, bu mərkəzlə əməkdaşlığı müsbət dəyərləndirib. Komitə sədri Azərbaycanla İsrailin dost dövlətlər olduğunu, iki ölkə arasında münasibətlərin yüksələn xətlə inkişaf etdiyini söyləyib. O, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı İsrailin dəstəyini yüksək dəyərləndirib.

İsrail Dövlətinin Şiba Tibb Mərkəzinin Qlobal şöbəsinin müdiri Yoel Har-Even səmimi görüşə görə təşəkkürünü bildirib. Ölkələrimiz və xalqlarımız arasında olan dostluq münasibətlərinin məmnunluq doğurduğunu qeyd edib. O, İsrail Dövlətinin hər zaman Azərbaycanın yanında olduğunu diqqətə çatdırıb.

Görüşdə iştirak edən Milli Məclisin Səhiyyə komitəsinin üzvü Anatoliy Rafailov iki ölkə arasında qarşılıqlı faydalı münasibətlərin inkişaf etdiyini söyləyib. Azərbaycanda yaşayan yəhudi icmasının ölkələr arasında ikitərəfli əlaqələrin möhkəmlənməsində xüsusi rolunu qeyd edib. O, ölkəmizdə yəhudilərə olan dost münasibətindən danışıb. Yəhudi xalqının nümayəndələrinin ölkə həyatının bütün sahələrində təmsil olunduğunu deyib.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2022.- 13 may.- S. 3.